# Bütün eşqlər kimi...

* * *

Gülxaniyə universitetdə dərs demişəm. Şeirlərini oxuyuram. Zamanın nəbzini tutub. Millətini, xalqını sevən qəlbi var. Onun təkcə "Oğuz şəhidləri, itkinləri" kitabındakı "Şəhidlər" poeması kifayətdir ki, Gülxanin xalqına, onun taleyinə olan milli hissiyyatının zənginliyini təsdiq edək. Yazıçı, şair, alim xalqla birdirsə yaşayacaq, həm yazdıqlarıyla, həm də fəaliyyətiylə... Gülxani hələ gəncdir, inanıram ki, Əzizə Cəfərzadənin, Nigar xanım Rəfibəylinin, Mədinə Gülgünün... istedaddlı, layiqli davamçılarından biri Gülxani olacaq...

Mən ona deyəndə ki, Qarabağda şəhid olan on minlərlə igidimiz var... Bölgələrdən könüllü olaraq Qarabağa gedən, qayıtmayan insanların talelərini, igidliyini gələcək nəsillərə çatdırmaq üçün onlar qələmə almaq lazımdır, hər bir şair, yazıçı jurnailist də doğulduğu elin igid oğullarının mərdlik və igidlik dolu həyatını qələmə almalıdır, Gülxani "Oğuz şəhidləri, itkinləri" kitabını yazdı, çap etdirdi, birini də mənə hədiyyə elədi. Kitabın içindəki bayatılar, şeirlər, o dediyim "Şəhidlər" poeması bir elin şərəfli tarixidir... Gülxanin qələmi mükəmməldir, uğurlu gələcəyi var...

**Bəxtiyar VAHABZADƏ**
*Xalq şairi*

* * *

Şəhriyar sevimli sənətkardır, böyük sənətkardır, o taylı-bu taylı böyük Azərbaycanın oğludur... Mən Şəhriyar haqqında danışmayacağam. Şəhriyarın 100 illik yubileyi münasibətiylə keçirilən bu tədbirin rəhbəri, verilişin ssenari rəhbəri Gülxani Pənaha təşəkkürümü bildirirəm. Qəlbim dağa döndü. Şair, alim öz millətinin, xalqının böyük sənətkarını bu qədər öz tələbələrinə sevdirməyə nail olub. Gülxani özü şairədir, alimdir, həm də bu gün mənim üçün yenilik oldu ki, Gülxani Pənah gözəl pedaqoqdur, gözəl müəllimdir, yaradıcı müəllimdir. Bu böyük zalda Şəhriyarın ruhu dolaşır, uzun illərdir Şəhriyarı tədqiq edirəm, onun yaradıcılığıyla məşğulam. Şəhriyarı gələcək nəsillərə sevdirmək üçün Gülxaniyə bir müəllim kimi də müvəffəqiyyətlər arzulayıram. Bütün yaradıcılığını bəzən kənara qoyub ədəbi irsimizi də təbliğ edən Gülxani Pənaha uğurlar, uğurlar, can sağlığı arzulayıram. Məni heyrətdə qoydunuz, Gülxani Pənah.

**Hökumə BÜLLURİ**
*Xalq şairi*

* * *

Gülxani istedadlı tələbələrimizdən olub. Yaradıcılıqda qazandığı uğurlar üçün üzərində çox çalışıb. Bu gün onun ədəbi aləmdə yaxşı yer tutmasında da öz üzərində işləməsi olub. Qadın incəliyi, qadın zərifliyi var şeirlərində, bəzən sərtdir, bəzən mübarizdir, bəzən... bütün bunlar yaradıcı insana məxsus xüsusiyyətlərdir. Kitablarını oxuyuram, elmi yazıları, monoqrafiyaları çoxdur.

Bakı Dövlət Universitetində Mir Cəlalın 100 illik yubileyi münasibətiylə keçirilən elmi konfransda çıxış ilə də heyran elədi bizi. Elmi təfəkkürü güclüdür. Böyük gələcəyi var.

**Cəlal ABDULLAYEV**
*Filologiya elmləri doktoru, professor*

* * *

Gülxaninin diplom rəhbəri olmuşam. Mövzusu adı səhv eləmirəmsə Cəfər Cabbarlının hekayələrində sənətkarlıq məsələləriydi. Yaxşı da müdafiə elədi. İşi sonra C.Cabbarlı ev muzeyinə hədiyyə elədim. Alimliyinə söz ola bilməz. Amma yaxşı da şairdir. O vaxt tələbə olandan yaradıcılığına bələd idik. Tribunalara az çıxır. Amma hansı qəzeti açırsan orda imzası var. Gülxaninin Azərbaycan ədəbiyyatı tarixində yeri var. Həm nəsr əsərləriylə, həm poeziyası ilə, həm də ədəbiyyatşünas alim kimi. 50 illik ömrü üçün otuza yaxın kitab müəllifi olmaq da insandan bədii və elmi təfəkkür istəyir. Allah bu istedadı ona verib.

**Gülhüseyn HÜSEYNOĞLU**
*Xalq şairi*

* * *

Doğulan yaxşı hər bir şeir, hekayə, ümumilikdə ədəbi əsər onu yaradan müəllifin uğurudur. Bu gün ədəbiyyatımızda 60-cılar nəslindən sonra gələn 80-cilər nəsli var. Onlar zamanın ağır sınaqlarına məruz qalsalar da, ədəbiyyatın məhək daşını çiyinlərdən yerə qoymağa imkan vermədilər. 60-cıların ədəbiyyata gətirdiyi yenilikləri dəstəkləyərək onların tutduqları yolun ədəbiyyata verdiyi qiymətli məxəzləri görərək etdikləri seçimin uğurunu gördülər. Dövrünün nəbzini tutan 80-cilərə Vətənin zəfərini, zəhmətini tərənnüm etmək nəsib olmadısa da, onlar azadlıq uğrunda, milli müstəqillik uğrunda mübarizənin öncüllərindən oldular, elə mübarizə meydanlarında ikən ədəbi axtarışların axarına düşdülər.

Gülxaninin şeirlərində, vətənə, torpağa ehtiram, onun igidinə, şəhidinə olan hörmət və məhəbbət deyim tərzinə görə oxucunu cəlb edir. Bəzi şeirlərində balası düşmənlə üzbəüz dayanmış ananın çəkdiyi ağrı-acılar, yuxusuz gecələrin verdiyi əzablar qəlbimizi parçalayır, bəzi şeirlərində isə əlində silah düşmənlə vuruşa hazır qəhrəman bir cəngavərin səsini duyuruq, qəlbimiz riqqətə gəlir. Şeirlərinin hər birində vətən eşqi çaylar kimi cağlayan ürək var; şair ürəyi, vətənə, torpağa bağlı insan ürəyi, humanist millətin humanist duyğuları...

**Fikrət QOCA**
*Xalq şairi*

* * *

Kitablarınızı Fikrət Sadığın otağında gördüm, aldım oxudum, qəzetlərdə elmi yazılarınızı oxuyuram. Siz ki, Fikrətlərin yaradıcılığını belə gözəl təhlil eləmisiniz, fədakar alimsiniz, bu kitabınızda çap olunan "Qabil baba" şeiriniz də çox xoşuma gəldi. Ədəbi mühitdə tanınmısınız. Sabir poeziya günlərində lap yaxından tanıdım sizi. Siz şeir, sənət, ədəbiyyat adamısınız. Amma bir iradım var, gərək qəbul edəsiniz, çox sakitsiniz, şair mübariz olar, belə zəngin yazılarınız, şeirləriniz var, hələ bu elmi işlərinizi demirəm.

**QABİL**
*Xalq şairi*

* * *

Yazıçılar İttifaqında iş otaqlarımız yanaşıdır. Alimliyinə bələddim. Bir-iki monoqrafiyası da məndə, stolun üstündədir. Bir dəfə tribunada çıxış edirdi, poeziya günlərində. Cənubi Azərbaycanla, Təbrizlə bağlı iki şeir oxudu, iliklərimə işlədi, dərdimi təzələdi. Mədinə Gülgün gəldi durdu gözümün qabağında. Azərbaycan anasıdır, əsl Azərbaycan qadınıdır, şairliyinə də söz yoxdur, "Qarabağ dərdi" kitabını da oxudum, əsl şairdir.

**Balaş AZƏROĞLU**
*Xalq şairi*

* * *

Bizim bu gün üçün ən ağrılı yerimiz torpaqlarımızın işğalıdır. Yazıçının vəzifəsi bu həqiqətləri dünyaya çatdırmaqdır. Qarabağ hadisələrini əks etdirən əsərləri ilə. Gülxani Pənahın "Bura Vətəndir", "Qarabağ dərdi" kitabları bu baxımdan aktualdır.

**Zəlimxan YAQUB**
*Xalq şairi*

* * *

Anarın bədii əsərlərində, esse və senarilərində milli-mənəvi və tarixi özünüdərk məsələsi həm də xalqımızın özünün sabahını da aydın şəkildə təsəvvür etməsinə işıq salır.

Bütün bunlara görə xalq yazıçısı Anarın həyatı və yaradıcılığı dərin və geniş tədqiqatlar üçün tam əsas verir. Müxtəlif illərdə haqqında yazılan kitablar və məqalələrdən hər biri onun çoxcəhətli ədəbi-ictimai fəaliyyətini işıqlandırmaq baxımından əhəmiyyətlidir. Lakin etiraf etmək lazımdır ki, haqqında çox yazılmasına baxmayaraq, hələ də Anarın sənət dünyasının özünəməxsusluqlarını bütün reallıqları ilə birlikdə əks etdirən ciddi monoqrafik tədqiqata ehtiyac vardır. Bu baxımdan filologiya elmləri doktoru Gülxani Pənahın "Anarın ədəbi-nəzəri, tarixi-siyasi publisistikasına ümumi baxış" monoqrafiyası Anarın yaradıcılığını elmi-nəzəri cəhətdən dəyərləndirmək istiqamətində atılmış əhəmiyyətli addımlardan biridir. Gülxani Pənah Anarın yaradıcılığını Azərbaycanın çoxəsrlik ədəbitarixi və ictimai-siyasi inkişafı və milli taleyi kontekstində araşdırıb qiymətləndirmişdir. Müəllifin Anarın əsərlərindəki ictimai-fəlsəfi məzmunu cəmiyyətin inkişaf dialektikası ilə üzvü əlaqədə təhlil edib qiymətləndirməsi mütəfəkkir yazıçının ümumiləşdirilmiş obrazının canlandırılmasına xidmət edir. Təqdim olunan kitab xalq yazıçısı Anarın tarixə, zamana və ədəbiyyata həsr olunmuş həyatı və yaradıcılığına müasirlik işığında elmi baxışları əks etdirən elmi əsər kimi də dəyərlidir. Gülxani Pənahın Anarın yaradıcılığını qiymətləndirərkən bədii mətndən çıxış edərək təhlilləri aparması, qənaətlərini ədəbi əsərlərdən çıxardığı nəticələr əsasında formalaşdırması monoqrafiyanı xalq yazıçısı haqqında əhəmiyyətli mənbəyə çevirir. Bu mənada Gülxani Pənahın araşdırmaları ədəbiyyatşünaslıq elmində Anar haqqında aparılan yeni tədqiqatların uğurlu bir başlanğıcıdır. Bu isə öz növbəsində elmdə Anarın həyatı və yaradıcılığına münasibətdə yeni mərhələyə ciddi bir girişin əks-sədası kimi əhəmiyyətlidir.

**İsa HƏBİBBƏYLİ**
*AMEA-nın prezidenti, akademik*

* * *

Sənət eşqi mürəkkəbdir, Gülxani. Bütün eşqlər kimi burada da qısqanclıq var, paxıllıq var. Sevinc də var, məyusluq da. Adətən istedadlara qısqanırlar, paxıllıq edirlər. Nəsimi, Cavid, Müşfiq kimilərini məhv edirlər. Sonradan heykəlini ucaldırlar. Şairlər ayaq üstə olanda balaca, tabutda uzananda böyük görünürlər. Beşikdən məhrumiyyət, dar ağacı müttəhim kürsusu, immiqrasiya onun alın yazısı olur. Gözdən salırlar, pisikdirirlər.

Bax, budur əsl sənətkarların gəldiyi və getdiyi yol. Şərq despotlarının şairə verdiyi qiymət. Onların heç biri o birindən fərqlənmirlər. Ədəbiyyat tarixi bunu deyir. Bu yolda eniş var, uçurum var.

Bax, elə bu, əbədiyyətdi.
Qorxma, gəl, Gülxani.

**Nəriman HƏSƏNZADƏ**
*Xalq şairi*

* * *

"Ümidinə qəm çilənənlər" povesti Azərbaycan qadının başı çəkən müsibətlərdən bəhs edir. Zöhrələrin acı taleyi, keçid dövrünün çətinliklərinin sosial-ictimai həyatda doğurduğu çətinliklər bu əsərdə bir qədər geniş planda öz əksini tapır. Qadın, ana taleyi, qəribliyin insanda doğurduğu əzab, insan övladının çəkdiyi mənəvi-cismani sarsıntılar, kimsəsizlik ağrısı, insani sifətlərini itirmiş simasız insanların törətdiyi faciələr, bu faciələrin ağrısını çəkən insanların daşlara çırpılmış səadəti "Ümidinə qəm çilənənlər" povestində qoyulan əsas məsələlərdəndir. Gülxani Pənah Anadır. Gözəl anadır. Ailəsində, övladları qarşısında xətir-hörmət sahibidir. Bir sözü iki olmayan, məhəbbəti səmimiyyəti ilə qazanan ana. Elə bir ana "Ümidinə qəm çilənənlər" povestini, "Arsız", "Ailə" hekayəsini yaza bilər. Mən Gülxani Pənahın yaradıcılığına dərindən bələdəm. İstedadlı şairdir, alimdir, tədqiqatçıdır, ədəbiyyatşünasdır. Onun tərifə ehtiyacı yoxdur. Sözünü istedadıyla, qabiliyyətiylə sübut edir. Təkcə "Oğuz şəhidləri, itkinləri" kitabına görə hər kəs ona "El anası" adını məmuniyyətlə verər.

Gülxani Pənah gözəl də jurnalistdir. Onun rəhbərliyi ilə "İskit" elmi-ədəbi, bədii, publisist jurnal nəşrə başlayıb. Mənasız mətbu orqanların baş alıb getdiyi bir zamanda biz alimlərin, ziyalıların ürəyindən xəbər verdi bu jurnal. Yolu uğurlu olsun. Qələminə qüvvət, canına sağlıq.

**Elməddin ƏLİBƏYZADƏ**
*Filologiya elmləri doktoru, professor*

* * *

Dissertasiya müdafiələrinin statistikasına nəzər salsaq görərik ki, müstəqillik dövründə müdafiə edənlərin yetmiş, səksən faizi qadınlardır. Bu sırada önəmli yeri şübhəsiz müəyyən istedadı, fədakar əməyi və ədəbi ictimai mövqeyi ilə fərqlənən Gülxani Pənah tutur. O mənə deyəndə ki, "Seçilmiş əsərləri" çap olunur, təəccüb etmədim, söz verdim ki, sağlamlığım çətin durumda olsa da, ona müxtəsər ön söz yazacam. Müasir mürəkkəb dövrdə türk xanımının bir ailənin gəlini, həyat yoldaşı, ana, nənə kimi çoxlu qohumluq və məişət öhdəlikləri var. Əgər o bunların müqabilində cild-cild əsərləri - şeirlər, poemalar, dramlar, publisistik kitablar, elmi nəzəri monoqrafiyalar yazır. Azərbaycan Yazıçılar Birliyi kimi mürəkkəb bir təşkilatın işini görür - ağ kağızla üz-üzə oturmağın məsuliyyətini şərəflə daşıyırsa ən böyük ehtirama layiqdir. Ən başlıcası isə: Gülxani Pənah bəzilərindən fərqli olaraq öz əsərlərini özü yazır! Onların hamısında Vətən və Millət qarşısında öz vətəndaş ziyalı borcunu intixab etmiş, istedadlı və qeyrətli Azərbaycan xanımının təmiz nəfəsi var.

**Nizaməddin ŞƏMSİZADƏ**
*Filologiya elmləri doktoru, professor*

* * *

Əslində, yaradıcılığı dar çərçivədə inkişaf edən qələm sahibi haqqında yazmaq daha asandır, çünki bir xətti, bir istiqaməti analiz eləmək daha rahatdır. Ancaq Gülxani Pənahın çoxşaxəli yaradıcılığı üzərində gəzişmək olduqca çətindir, hansı sahəyə diqqət yetirməyi müəyyən etməyə seçim qarşısında qalırsan. Axı onun şeirləri ayrıca bir araşdırma mövzusudur, nəsr əsərləri ayrıca, publisistikası ayrıca. Və bunların sırasına elmi monoqrafiyalarını əlavə edəndə, çaşqınlıq bir az da artır.

Lakin, zənnimcə, bu çaşqınlıq da müəyyən vaxtdan sonra aradan qalxacaq. Gülxani xanım özü bizim ustad yazarlarımız barədə böyük təssübkeşliklə geniş araşdırma kitablar qələmə aldığı kimi, gənc nəslin nümayəndələri də onun yaradıcılığının müxtəlif tərəflərini öyrənəcək, analiz edəcək, araşdırma əsərlər yazacaq. Məhz bu zaman onun nəsri, poeziyası, publisistikası, elmi əsərləri - hər biri ayrıca bir araşdırma mövzusu olacaq.

Mən yubileyi münasibətiylə Gülxani xanımı təbrik edirəm və əminəm ki bundan sonra da onun yaradıcılığı eyni rəngarəngliklə, eyni enerji ilə yüksələn xəttlə davam edəcək...

**İlqar FƏHMİ**
*Azərbaycan Yazıçılar Birliyinin katibi, yazıçı dramaturq*